**Mirzəyeva Səbinə Həmid qızı**
**BDU. i.e.n.**

## Qız və oğlan övladı arasında ayrıseçkilik

İslam dini qız və oğlan uşaqları arasında fərq qoymağın qəti əleyhinə olaraq, qız uşaqlarına mənfi münasibət bəsləməyi qadağan etmişdir. İslamın zühuruna qədər və onun meydana gəlməsi əsnasında ərəblər qız uşaqlarının dünyaya gəlməsinə kişinin ləyaqətini alçaldan neqativ bir hadisə kimi baxırdılar. Cahiliyyət dövrü ərəbləri bir kimsəni qəmgin görüncə rişxəndlə soruşarmışlar: «Səni qəmgin görürəm. Olmaya arvadın hamilədir? Yoxsa qız atası olmusan?». (1,87)

İslama qədərki ərəblər arasında geniş yayılmış və insanlığa yad olan pis adətlərdən biri də yoxsulluq qorxusu ilə qız uşaqlarının məhv edilməsi idi. Qədim ərəblər uşaqlarını öldürməklə onların saxlanması və böyüdülməsi ilə əlaqədar ortaya çıxan çətinliklərdən yaxa qurtarmağa çalışırdılar. Bəzi qəbilələrdə isə məhz qız uşaqları məhv edilir və oğlan uşaqlarına toxunmurdular. İslam özünün gəlişi ilə bu mənfi münasibəti rbütün qız uşaqlarının xeyrinə dəyişdirdi. Bir gün Həzrəti Peyğəmbərin (s.ə.s.) səhabələrindən biri ona: «Himayə və yaxınlığa ən çox layiq olan kimdir?»- deyə belə bir sualla müraciət etmişdi. O, bu suala üç dəfə: «Anan»- deyə cavab vermiş və yalnız sual dördüncü dəfə təkrar edildikdə: «Atan» deyə əlavə etmişdir. Bu hədisdən çox gözəl anlaşılır ki,dinimiz qadınlara hansı üstünlükləri vermişdir.(3,125)

İslamın bu müdrik qadağası uşaqların himayəsi baxımından olduqca əhəmiyyətli bir tədbir olmuşdur. Qurani-Kərimin «əl-Ənam» surəsinin 151-ci ayəsində canın təhlükəsizliyinə təminat olaraq Allaha şəriklər qoşmamağa, valideynlərə xeyirxahlıqla yanaşmağa, pisliyin açıq və gizli formalarından uzaq olmağa çağırılır. “ ( Ya Rəsulum) De: “ Gəlin Rəbbininizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündın uşaqlarınızı öldürməyin. Sizin də onlarında ruzisini Biz veririk. Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allah (qətlini) haram buyuduğu cana qıymayın ( müsəlman və əhli-zimməni haqsız yerə öldürməyin). (Allah) bunları sizə

tövsiyyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız”

Hamımıza yaxşı məlumdur ki, qadın qarşılıqlı borc və vəzifələrə malik olan ailə üzvlərinin mühüm bir tərəfini təşkil edir. O, hər bir şeydən əvvəl ev işlərini idarə edən həyat yoldaşı və övladları üçün şəfqət qaynağı olan anadır. Həzrəti Peyğəmbər (s.ə.s.) qadına diqqət və qayğı göstərməyin zəruriliyini qeyd edərək hədislərinin birində demişdir: «Sizin ən çox xeyirli olanınız öz zövcələrinizə qarşı xeyirxah olanınızdır». (3,124) Həzrəti Peyğəmbərin (s.ə.s.) sünnəsi cahiliyyət dövründə formalaşmış və bir adət şəklini alaraq qadına xor baxmağın kökünü kəsmişdir. Qurani-Kərim Həzrəti İsanın atasız olaraq Məryəmdən doğulduğunu ərz etməklə (Məryəm, 16, 17, 21, 28-30) insan nəslinin davam etməsində qadının aparıcı rol oynadığını nəzərə çarpdırmışdır. Digər bir yerdə Qurani-Kərim Həzrəti Musanın doğumundan sonra məruz qaldığı təqiblərlə dolu, təhlükəli günlərdə yalnız anasına və bacısına arxalandığını qeyd edir. Lakin burada Həzrəti Musanın kim olduğu barədə heç bir şey deyilmir. ( Taha 37- 40). Görünür ki, bu ayə uşaqların həyatının ilk illərində onların böyüdülüb boya-başa çatmasında, himayə və tərbiyə olunmasında ananın aparıcı rol oynadığını nəzərə çarpdırmaq məqsədi güdür. Onu da qeyd etmək istərdik ki, qadının insan həyatında aparıcı rol oynaması və ailədə oğlan övladı olmadan belə nəslinin davam etdirə bilməsi mümkündür. Çünki, başda Həzrəti Məhəmməd (s.ə.s.) olmaqla, peyğəmbərlərin çoxunun oğlan uşaqlarının olmadığı və ya vəfat etmiş olduğu, nəsillərinin qızları vasitəsilə davam etdirilməsi bir çox lazımi qaynaqlarda əks olunmuşdur. (5, 70) İslam dini uşağın həyatını ana bətninə düşdüyü gündən etibarən müqəddəs bir hadisə kimi qəbul edərək, onun mühafizə edilməsi üçün bir çox tədbirlər nəzərdə tutmuşdur. Bu tədbirlərin ən əhmiyyətlisi qız uşaqlarının dünyaya gəlməsi ilə əlaqədar valideynlərin qəmlənməsini və üzüntü keçirməsini cahiliyyət dövründən qalmış pis bir adət kimi rədd etməsidir. «Onlardan birinə qızı olması ilə müjdə verdikdə qəzəblənib üzü qapqara qaralar. Verilən müjdənin üzündən öz tayfasından qaçıb gizlənər» (ən-Nəhl, 59).

Müslimin «əs-Səhih əl-Cami» əsərində Malik ibn Ənəsə istinadən nəql edilən bir rəvayətdə deyildiyinə görə Həzrəti Peyğəmbər (s.ə.s.) barmaqlarını cütləyərək: «İki qız uşağını yetkinlik yaşına qədər böyüdən

qiyamət günündə mənimlə belə əl-ələ gəzəcəkdir»- deyərək qız uşaqlarını böyütməyin daha çox savab gətirdiyini vurğulamışdır.(3,153) Hz.Peyğəmbər (s.ə.s.)- in başqa bir hədisində «Kim üç və ya iki qız olarsa, Allahdan qorxaraq onlarla yaxşılıqla rəftar edərsə, onun gedəcəyi yer cənnətdir»- demişdir. Səhabələrdən biri: «Təkcə bir qızı olan da bu imkandan yararlana bilərmi?» – deyə soruşduqda müsbət cavab verərək demişdir: «Şübhəsiz!» (8,130). Qurani-Kərimin bu məsələyə münasibəti «əş-Şura» surəsinin 50-ci ayəsindən açıq görünür: «Göylərin və yerin hökmü Allahın əlindədir. O, istədiyini yaradır, istədiyinə ancaq qız, istədiyinə də ancaq oğlan verir. Yaxud hər ikisindən – həm oğlan, həm də qız verir, istədiyini də sonsuz - övladsız» edir. O (hər şeyi) bilən, (hər şeyə) qadirdir ( əş-Şura, 50).

**Ailə daxilində uşaqlar arasında vacib olan ədalət:** Muşahidələrdən məlumdur ki, adətən ailədə birinci uşağa valideyn tərəfindən sevgi, məhəbbət, qayğı və diqqət daha çox göstərilir. Valideyinlər uşağın maddi və mənəvi ehtiyaclarını yerinə yetirməyə can atırlar. Ailədə başqa övlad yoxdur deyə, bütün diqqət onun üzərində olur. Uşaq çox vaxt anası, yaxud atası ilə və ya hər ikisi ilə birlikdə vaxt keçirir. Bir sözlə valideynlərdən xüsusi bir diqqət görür. Körpə olmasına baxmayaraq belə vəziyyətə alışır və bu onun xoşuna gəlir. Bu cür qayğı və diqqət görən uşaq evdən kənara çıxdıqda bir çox çətinliklərlə üz-üzə qalır. Bir müddət sonra ailədə ikinci övlad dünyaya gəldikdə isə ata-ana həmin uşağa nəvaziş göstərəndə təbii ki, birinci uşaqda yeni doğulan körpəyə qarşı qısqanclıq, paxıllıq hissləri yaranır.

Bu cür hallara valideynlər diqqət yetirməlidirlər, çünki bu qısqanclıq hissi get-gedə düşmənçilik hissinə çevrilə bilər. Valideyn çalışmalıdır ki, öz övladları arasında heç bir ayrı-seçkilik salmasın. Ümumiyyətlə, qeyd etmək istərdik ki, bütün övladların öz valideynlərindən sevgi, məhəbbət və ehtiram görmə hüququ vardır. Ona görə də nə qədər ki, yeni uşağa göstərilən diqqət və qayğı birincidən üstün olarsa, birinci uşağın mənəvi-psixoloji vəziyyətində də öz əksini göstərir. Belə vəziyyətdə buna fikir vermək, bu cür təzahürün qarşısını almaq, birinci uşağa əvvəlki kimi qayğı və diqqət göstərməklə yanaşı, onun ikinci və yaxud da o birisi uşaqları sevməsinə şərait yaratmaq lazımdır. Yeni doğulan körpənin ona qardaş və yaxud bacı olmasını, gələcəkdə ona kömək edəcəyini başa

salmaq valideynin borcudur. Ata-ana bu tərbiyəni yalnız dildə deyil, reallıqda da həyata keçirməlidirlər. Belə ki, ana ona qarşı olan münasibətini dəyişməməli ata da onun ehtiyaclarını çalışıb ödəməlidir. Ailədə düzgün valideyn-övlad münasibəti qurularsa uşaqlardan heç biri kənarda qalıb diqqətsizliyi hiss etməzlər. Həqiqətən bu cür normal münasibət nifrət və ədavətin qarşısını alır, onlar arasında bərabərlik və ədaləti bərpa edir. Və bu da uşaqlar böyüdükcə onlar arasında səmimi münasibətlər yaratmağın əhəmiyyətini artırır. Çünki onların şüur və düşüncələri, ağıl və danışıq yetkinlikləri tədricən onların ədalət və bərabərlik mənasını başa düşməyə, real həyatda ədalətin yerlərini bir-birindən ayırmağa kömək edir.

Həzrəti Peyğəmbər (s.ə.s.)-dən uşaqlar arasında ədalət yaratmağa təkid edən bir çox rəvayətlər vardır. İnsanların ədalətlisi o şəxsdir ki, özü üçün istədiyini başqaları üçün də istəyir, özü üçün arzulamadığı şeyləri başqaları üçün də arzulamır. Bir saatlıq ədalət 70 illik ibadətdən yaxşıdır. Göyləri və yeri saxlayan ədalətdir. Qiyamət günü Allah-təalaya ən yaxın insan ədalətli padşah, ən uzaq insan zalım padşahdır. (4,122).

Həzrəti Peyğəmbər (s.ə.s.) buyurmuşdur: «Yaxşılıq və xeyirxahlıq arasında ədalətli olmağınızı istədiyiniz kimi övladlarınızın arasında da ədalətli olun.» (8, 220).

«Öz övladlarınızla ədalətli rəftar edin. Axı siz özünüz də istəyirsiniz ki, sizə qarşı ədalətlə rəftar etsinlər.» (9, c.2, s.684).

Həzrəti Əlidən edilən rəvayətə görə, «Peyğəmbər (s.ə.s.) bildirdi ki, iki övladı olan bir ata onlardan birini öpür, digərinə isə diqqət yetirmirdi. Həzrəti Peyğəmbər (s.ə.s.) həmin atanın bu hərəkətindən qəzəblənib deyir: «Bu işdən əl çək! Çünki sən bu rəftarınla onların arasında düşmənçilik toxumu səpirsən. Allah-təala övladlar arasında (hətta öpüşdə belə) ədalətlə rəftar edən valideyni sevir.» (9, s.74, s.84).

Biz ədalət dedikdə məqsədimiz bu deyil ki, uşaqlar arasında heç üstünlük verilməsin. Əlbəttə, hər bir övladın yaxşı əməllərini təqdir etməli və bu yolla onlar yaxşı işlərə cəlb olunmalıdırlar. Amma heç bir səbəb olmadan övladların birini digərindən üstün tutmaq və onlara qarşı münasibətdə ayrı-seçkilik etmək olmaz.

Həzrəti Peyğəmbər (s.ə.s.) valideynlərə, övladlarının arasında gündəlik yemək-içmək, geyim və oyuncaq kimi məişət tələbatını

ödəməkdə də ədalətli olmağı tövsiyə etmişdir. O demişdir: «Övladlarınız arasında hədiyyə verməkdə ədalətə riayət edin. Əgər fərqləndirmək mümkün olsaydı, qızların haqlarını üstün tutardım.» (3,155)

Çünki övladlar arasında fərq qoyanda bu münasibət daha çox qız uşaqlarına mənfi təsir göstərir. Bu da bacı-qardaş arasında düşmənçilik, kin və küdurət toxumunun səpilməsinə əsas amil olur. Bu cür münasibət bir çox ailələrdə geniş yayılmış adi bir haldır ki, valideynlər oğula qızdan daha çox qayğı göstərib, oğlun istəklərini qızın istəklərindən üstün tuturdular. Bu cür münasibətləri dəyişmək üçün Peyğəmbər (s.ə.s.)-dən bir sıra rəvayətlər nəql edilmişdir. Hz.Peyğəmbər (s.ə.s.) buyurmuşdur: «Həmişə evə meyvə və ya yaxşı bir şeylər alanda birinci qadınlardan və qızlardan başlayın. Çünki bir şəxsin bir qızı şad etməsi bir nəfər qulu Allah-təala yolunda azad etməsi kimidir.» (5, 155).

İbn Abbas Hz.Peyğəmbərdən (s.ə.s.) etdiyi rəvayətə görə «Hər kim bazardan hədiyyə alıb ailəsinə aparsa, ehtiyaclı adamlara sədəqə aparan kimi olar. Hədiyyə verdikdə oğlanlardan qabaq qızlardan başlansın.» (5,85).

Qızlardan başlamaq oğlan uşağında hansısa bir mənfi təsir doğurmur. Çünki o bunu təbii bir iş hesab edir ki, istər-istəməz ikisindən biri qabaq düşəcək. Çox vaxt oğlan uşağı susur, verməyin birinci yaxud ikinci olmasından asılı olmayaraq atanın bəxşiş verməsində fərq baş versə belə, ona diqqət yetirmir. Bir də ki, oğlan uşaqlarını balacalıqdan qızlara qarşı güzəşt getməyi, onlara hörmət etməyə alışdırsaq daha yaxşı olardı.

Rufaə Əsədi rəvayət edir ki, İmam Musa ibn Cəfər (ə)-dən sual etdim ki, bir kişinin bir neçə oğlu var və həmin uşaqların anası da eyni deyildir. Bu kişi bu uşaqlardan birini digərindən üstün tuta bilərmi? Dedi: «Bəli, eybi yoxdur, mənim atam da məni qardaşım Abdullahdan üstün tutardı.» (5,82). Lakin üstün tutmaq gərək gizli olsun, onların qarşısında aşkar edilməsin. Valideyn bunu qəlbində saxlayıb real həyatda yalnız ədalət və bərabərliklə rəftar etsin. İmam Cəfər Sadiq bu haqda belə buyurmuşdu: «Atam deyərdi: And olsun Allaha, mən övladlarımın bəzisini sevir, dizimin üstündə oturduram. Ona daha çox məhəbbət göstərib artıq razılıq bildirirəm. Halbuki, haqq o biri övladım ilədir, bunu ona görə belə edirəm ki, ona Yusifin qardaşlarının etdiyini həyata

keçirməsinlər.» (5,83).

Doğurdan da uşaqlar arasında ayrı-seçkilik salanda bu onların mənəviyyatına çox pis təsir göstərir. Buna misal olaraq Hz.Yusifi də atası o biri qardaşlarından çox istəyirdi və bu istəyini hər vaxt biruzə verirdi. Bu da qardaşların Yusifə qarşı kin-küdurət bəsləməsinə gətirib çıxardı. Nəticədə onlar Hz.Yusifi quyuya atıb öz ailələrindən uzaqlaşdırdılar.

Bu hadisədən görürük ki, valideyn hissiyyatı hansı uşağın sevgiyə daha layiqli olduğunu hiss edir. Lakin buna baxmayaraq bunu hiss etdirmək lazım deyil. Bəzi ataların hərəkətində də bir çox məqsədə uyğun olmayan halların şahidi oluruq. Belə ki, ata deyir filan oğlum mənə oxşayır, o biri oxşamır. Hətta bu cür fərq qoymaq belə onların bir-birinin paxıllığını çəkməsində öz işini görür. Övladlar arasında bu cür fərq qoymaq valideynə qarşı inamın itməsinə səbəb olur. Qüruru sınmış uşağın gələcəyi də şəxsiyyətsiz olur.

Uşaqlar arasında ədalət və bərabərliyi həyata keçirdikdə bəzən ixtilaf və çəkişmələr də olur. Bu da təbii bir haldır ki, bütün, yaxud əksər ailələrdə ziddiyyət yaranır. Bəzən kəskin münaqişəyə, yaxud əlbəyaxa tutaşmağa gətirib çıxarır. Uşaqlarda bir qardaşını, yaxud başqasını öz haqqında müqəssir olmağa və ya ona qarşı davaya birinci başlamağa təqsirləndirir.

Belə halda valideyn bu vəziyyətə təbii baxmalıdır. Bu münaqişə yüngül olsa yaxşısı budur ki, bunun qarşısını almaqda qarışmayıb, uşaqları azad buraxsınlar ki, özləri öz işlərini həll etsinlər. Doğru olmaz ki, valideyn bu münaqişəyə qarışıb, birinin lehinə digərinin əleyhinə hökm edərək, uşaqlar arasında ədalət və bərabərliyi pozsun. Lakin bu cür ixtilaf və çəkişmələr bir neçə dəfə təkrarlansa, yaxud gün boyu davam etsə, valideyn bunun qarşısını almalı, onların hər ikisinə bu işi qurtarmalarına əmr verməli və ya diqqətlərini başqa mövzuya yönəltməlidir. Bu vaxt danlamaq və ya başqa bir tədbir görmək lazım gələrsə valideyn bunu hər iki uşağa tətbiq etməlidir.

Bu mövzunun sonunda belə bir nəticəyə gəlirik ki, övladlara hörmət etməli və onların arasında fərq qoymamalıyıq. Çünki onlar bizdən ədaləti öyrənəcəklər və gələcəkdə görüb-öyrəndikləri hər bir şeyi öz ailələlərində tətbiq etməyə çalışacaqlar.

**Дискриминация между детьми в семье**

Ислам категорически против дискриминации между сыном и дочерью. В семье дети должны уважаться без различия их пола и не должна существовать дискриминация по этому поводу. В будущем они будут поступать так как, их учили родители.

**The discrimination between the children in the family**

Islam is decisively against the discrimination between daughter or son. The children must be respected without differing gender and no discrimination will be exist. Since, they will learn honesty from us and apply all they have learned in future.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Babazadə Əli Əkbər. İslamda evlənmə və ailə hüququ. İran: Zilhiccə,1420, (Aprel 1999), 476 s.
2. Qurani Kərim. Ərəb dilindən tərcümə edənlər Z.M.Bünyadov; V.M.Məmmədəliyev. Bakı: Qismət, 2004, 607 s.
3. Yusifpur Hacı Əbdurrəhman. İslamda ailə üzvlərinin hüququ. Bakı, 1998, 164 s.
4. Məmmədzadə. Hz. Məhəmmədin simasında islam əxlaqı, s.122).
5. Yusifpur Hacı Əbdurrəhman. İslamda tərbiyə və uşaq psixologiyası. Bakı: Nafta- press, 1998, 107 s.
6. Çeker Orhan. İslam Hukukunda cocuk. İstanbul: Kayıhan yayınları, 1990, 233s.
7. Erbay Celal. İslam hukukunda küçüklerin himayesi. Bakı: Göytürk, 1995, 274 s
8. «Məkarimul-əxlaq», s.220